AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

11 AVQUST 2024-cü il BAZAR № 170 (7928) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ



# Mərkəzi Asiya və Azərbaycan

## Dövlət başçılarının qarşılıqlı səfərləri ölkələrimiz arasında dostluq, qardaşlıq münasibətlərindən və genişlənən əməkdaşlıqdan xəbər verir

*Qarşılıqlı etimada əsaslanan münasibətlərin qurulması Azərbaycanın xarici siyasətində mühüm istiqamətdir. Bu siyasət nəticəsində ölkəmizin xarici əlaqələri, dostluq münasibətləri daim güclənir.*

Beynəlxalq münasibətlər sistemində çətin və mürəkkəb proseslərin getdiyi vaxtda öz mövqeyini gücləndirməsi, həmçinin geopolitik mərkəzə çevrilməsi Azərbaycanın qlobal siyasi güc olaraq nüfuzunun daha da yüksəlməsinə stimul verir. Ölkəmizin dünyada yüksələn nüfuzu sayəsində bir çox dövlətlərin Azərbaycanla əməkdaşlığa marağı artır və onların arasında Mərkəzi Asiya dövlətləri xüsusi yer tutur. Qeyd etmək lazımdır ki, Azərbaycan Mərkəzi Asiya ölkələri ilə əlaqələrin inkişafının yeni mərhələsinə qədəm qoyub. Bu baxımdan, son bir ildə Azərbaycan Prezidentinin Mərkəzi Asiya ölkələrinə ardıcıl səfərləri xüsusilə diqqət çəkir.



"Azərbaycanın Mərkəzi Asiya dövlət başçılarının görüşlərinə dəvət olunması ölkələrimiz arasında mövcud dostluq, qardaşlıq münasibətlərindən və inkişaf etməkdə olan əməkdaşlıqdan xəbər verir". Bu fikirləri avqustun 9-da Prezident İlham Əliyev Qazaxıstanın paytaxtı Astanada Mərkəzi Asiya və Azərbaycan Respublikasının dövlət başçılarının görüşündə deyib. Son iki ildə Mərkəzi Asiya ölkələrinə 16 dəfə səfər etdiyini xatırladan dövlət başçısı bildirib ki, həmin müddətdə Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistandan olan həmkarları Azərbaycanı ümumilikdə 15 dəfə ziyarət ediblər.

Ölkə başçımızın Qazaxıstanın paytaxtı Astanada keçirilən Mərkəzi Asiya dövlət başçılarının görüşünə dəvət edilməsi ölkəmizin siyasi və iqtisadi nüfuzunun yüksəldiyini təsdiqləyən daha bir nümunədir.

(davamı 2-ci səhifədə)

# Mərkəzi Asiya və Azərbaycan



**_Dövlət başçılarının qarşılıqlı səfərləri ölkələrimiz arasında dostluq, qardaşlıq münasibətlərindən və genişlənən əməkdaşlıqdan xəbər verir_**

**(əvvəli 1-ci səhifədə)**

Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana səfəri bir sıra aparıcı kütləvi informasiya vasitələrində geniş şərh olunur. Azərbaycan Mərkəzi Asiya ölkəsi olmasa da, dövlətlərimizi çoxəsrlik tarixi və mədəni əlaqələr bağlayır və strateji əhəmiyyəti artmaqda olan geosiyasi məkandır. Azərbaycan Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistanla bir sıra çoxtərəfli formatlarda uğurla əməkdaşlıq edir. Mərkəzi Asiya dövlətləri də yaxın, dost, qardaş Azərbaycanla əlaqələrə böyük önəm verirlər, ölkələr arasında fəal dialoq mövcuddur. Vətən müharibəsində və ondan sonrakı dövrdə bu regionun ölkələri Azərbaycanın haqq işinə həmişə dəstək göstəriblər.

Astanada dünyada artan təhdid və çağırışlardan söhbət açan, bunun ölkələrimiz arasında müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın daha da gücləndirilməsini tələb etdiyini vurğulayan dövlət başçısı qeyd edib ki, ikitərəfli münasibətlər ticari-iqtisadi və mədəni-humanitar qarşılıqlı fəaliyyət çərçivəsində bütün sahələr üzrə inkişaf edir. Ermənistanın işğalından azad edilmiş Qarabağın bərpasına dəstək qardaşlıq münasibətlərimizin təzahürüdür. Ermənistan tərəfindən təxminən 30 illik işğal dövründə bu ərazilərdə 9 şəhər və yüzlərlə yaşayış məntəqəsi məhv edilib. İşğaldan azad olunmuş ərazilərdə hazırda genişmiqyaslı bərpa işləri aparılır və keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı davam edir. Prezident İlham Əliyev Füzulidə Mirzə Uluqbəy adına məktəbə, Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinə və Ağdam rayonunda təməli qoyulan orta məktəbə görə Özbəkistan, Qazaxıstan və Qırğızıstan prezidentlərinə təşəkkürünü bildirib.

Ötən il Bakıda, Heydər Əliyev Mərkəzində BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının - SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşü keçirilib. Azərbaycan SPECA-ya sədrliyi qəbul edib. Bu qərar İsveçrənin Cenevrə şəhərində keçirilmiş SPECA iştirakçı ölkələrinin nazirlərinin görüşündə qəbul edilmiş Birgə Bəyanatda əksini tapmışdır. Prezident İlham Əliyev Zirvə görüşündə iştirak edib. Qeyd edək ki, SPECA 1998-ci ildə yaradılmış BMT-nin Mərkəzi Asiya iqtisadiyyatları üçün xüsusi proqramdır. Azərbaycan, Qazaxıstan, Tacikistan, Qırğızıstan, Türkmənistan, Özbəkistan və Əfqanıstan bu təşkilatın üzvüdür. SPECA-nın yaradılmasının 25-ci ildönümünün də Bakıda keçirilməsi və Azərbaycanın bu təşkilata sədrlik etməsi ölkəmizin beynəlxalq aləmdə artan nüfuzundan xəbər verir. Sammitdə Proqramın üzvü olan ölkələrin prezidentləri və digər yüksək səviyyəli rəsmilərin iştirakı onun nə qədər mühüm önəm daşımasının göstəricisidir.

Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında yeni əməkdaşlıq formatları yaxşı perspektivlər vəd edir. Bu gün Avropanın enerji təhlükəsizliyinə ciddi töhfələr verən Azərbaycan Şərqlə Qərb arasında, o cümlədən Mərkəzi Asiya ölkələri üçün mühüm tranzit ölkə və etibarlı tərəfdaş olaraq qəbul olunur. Mərkəzi Asiya ölkələri ilə Azərbaycanın tarixi mədəni əlaqələr fonunda iqtisadi əməkdaşlığı da yeni inkişaf mərhələsinə qədəm qoyub.

Qazaxıstan, Qırğızıstan və Özbəkistanla birgə fəal şəkildə reallaşdırılan investisiya layihələri, bu xüsusda yaradılan Azərbaycan-Qazaxıstan, Azərbaycan-Qırğızıstan və Azərbaycan-Özbəkistan birgə investisiya fondları da əhəmiyyətli rola malikdir. Eyni zamanda rəqəmsal infrastrukturun inkişafına və rəqəmsal təhlükəsizliyə töhfələr vəd edən "Rəqəmsal İpək Yolu" layihəsinin həyata keçirilməsi də nəqliyyat-ticarət əlaqələrinin daha da sıxlaşmasının bariz nümunəsidir. Əminliklə demək olar ki, Bakı-Tbilisi-Qars dəmir yolunun, Ələt Beynəlxalq Ticarət Limanının nəqliyyat-tranzit baxımından imkanları sözügedən region ölkələrini böyük inkişaf yoluna çıxaracaq. Avropa və Asiya arasında körpü rolunu oynayan Azərbaycan, xüsusilə dəmir yolu nəqliyyatının inkişafı ilə bu potensialı reallaşdırmaq üçün böyük imkanlara sahibdir. Modernləşdirilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xətti Orta Dəhlizin cəlbediciliyini artırır. Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) regional geosiyasi balanslaşdırma strategiyalarını müəyyən edir və Avrasiya regionunda bir çox dövlətlər üçün mühüm tranzit marşrutudur. Çin və Avropa İttifaqının (Aİ) konteyner dəmir yolu yük şəbəkələrini Mərkəzi Asiya, Qafqaz, Türkiyə və Şərqi Avropa vasitəsilə birləşdirir.

Mərkəzi Asiya və Qafqaz ölkələri üçün Orta Dəhliz böyük əhəmiyyət kəsb edir. Onu da qeyd edək ki, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan "dənizə çıxışı olmayan ölkələr" statusuna malikdir. Mütəxəssislər bildirirlər ki, Gürcüstan vasitəsilə aparılan tranzit Azərbaycana kömək edir, lakin Mərkəzi Asiya ölkələri üçün bu amil əlavə problemlər yaradır. Bütün bu amillər marşrutun inkişafında öz izini qoyur və bu gün biz həqiqətən də bu marşrutun inkişaf etdirilməsinə ehtiyac olduğunu görürük. Marşrut çox unikal, tamamilə multimodaldır. Orta Dəhlizi daim böyüyən və inkişaf edən canlı orqanizm hesab etmək olar ki, bu da beynəlxalq nəqliyyat marşrutunun uğurundan xəbər verir. Regionun tamhüquqlu tranzit mərkəzinə çevrilən Azərbaycan Orta Dəhlizdə əsas dövlətlərdən biridir. Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu ölkəmizin qarşıya qoyduğu iqtisadi məqsədlərə nail olmağa xidmət edir. Azərbaycan Mərkəzi Asiya ölkələri ilə fəal və genişlənən əməkdaşlığa açıq ölkədir.

Əsas məsələ isə bütün bunlara beynəlxalq səviyyədə güc mərkəzləri, nüfuzlu təşkilatlar tərəfindən göstərilən dəstəkdir. Azərbaycan COP29-a sədrliyi çərçivəsində regionumuzda iqlim dəyişmələri ilə bağlı problemlərin həlli üçün Mərkəzi Asiya ölkələri ilə birgə təşəbbüsləri dəstəkləməyə hazır olduğunu bəyan edir. Bu baxımdan may ayında imzalanmış "Azərbaycan, Qazaxıstan və Özbəkistanın enerji sistemlərinin birləşdirilməsi üzrə Əməkdaşlıq Memorandumu" yaşıl enerji sahəsində əməkdaşlıqda ilk addım olaraq yüksək dəyərləndirilir.

**Mustafa KAMAL,**
**"Respublika".**